**AZƏRBAYCAN RESPUBLİKASI**

***Əlyazması hüququnda***

# AZƏRBAYCAN DİLİNDƏ OBRAZLAŞDIRICI DİL VASİTƏLƏRİNİN MƏNTİQİ-LİNQVİSTİK NORMALARI

İxtisas: 5706.01–Azərbaycan dili
Elm sahəsi: filologiya

İddiaçı: **Aynur Allahverdi qızı Orucova**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya Gəncə Dövlət Universitetinin Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Mübariz İmran oğlu Yusifov**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Məhərrəm Əvəz oğlu Məmmədov**

filologiya üzrə fəlsəfə doktoru,dosent
**Aytən Müslim qızı Bəylərova**

filologiya üzrə fəlsəfə doktoru,dosent
**Elşad Şərəfxan oğlu Abışov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor

______________ **Nadir Balaoğlan oğlu Məmmədli**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Yusif qızı Məmmədova**

______________

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
**Nərgiz Musa qızı Hacıyeva**

______________

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Dilin əsas əlamətlərindən biri onun obrazlaşdırıcı vasitələri (frazeoloji vahidləri, metaforları, aforizmləri və s.) toplamaq bacarığıdır ki, bunlar da daha çox danışıq dilində yayılır. Obrazlaşdırıcı dil vasitələri şifahi danışıqda və bədii mətnlərdə ritmik ardıcıllıq, ifadəlilik, ümumiləşdiricilik və emosionallıq yaradılması üçün işlədilir, bədiiliyin meydana çıxmasına xidmət edir. Obrazlaşdırıcı dil vasitələrinin işlədilməsi ilə, həmçinin bədii mətnlərdə anlayışların intensivləşməsinə təsir göstərən poetiklik yaradılır. Azərbaycan dilinin istər şifahi danışıq üslubunda və istərsə də yazılı mənbələrində poetiklik yaradılmasının qədim və zəngin ənənələri vardır. Obrazlaşdırıcı vasitələrin yaranmasında iki əsas istiqamət mövcuddur. Bunların bir qismi bilavasitə dil vahidlərinin məcazlaşması yolu ilə, digər bir qismi isə dil səviyyələrinə məxsus olan fonetik, leksik, morfoloji və sintaktik elementlərin emosionallıq bildirməsi yolu ilə formalaşır. Bunların hər ikisi dildə aktiv işlədilməklə özünəməxsus ənənə yaradır. Məcazlaşma yolu ilə formalaşan obrazlaşdırıcılıq elementləri milli təfəkkür tərzi ilə bağlı olur və mental xarakter daşıyır. Emosionallıq yolu ilə formalaşan obrazlaşdırıcılıq elementləri isə daha çox üslubi səciyyə daşıyır və bunların zənginləşməsində bədii təcrübə ənənələri mühüm rol oynayır. Hər iki istiqamət üzrə formalaşan obrazlaşdırıcılıq vasitələrinin vahid norma təməli mövcuddur. Bu norma onların məna və anlayış cəhətdən intensivləşdiriciliyə malik olmasından ibarətdir. Əgər dil vahidlərinin məna və anlayışında intensivləşmə yoxdursa, onlar nominativ funksiyadan kənara çıxmır və obrazlaşdırıcılıq keyfiyyətinə də malik olmur. Məcazlaşmış dil vahidlərində intensivləşmə onların mümkün anlayış valentliyinə malik olması ilə ölçülür. Yəni hər hansı dil elementi bir və ya bir neçə məcazi məna daşıya bilər. Məcazlaşmanın kəmiyyəti nə qədərdirsə, keyfiyyəti də o qədər olur. Nominativ dil vasitələrinin obrazlaşdırıcılıq keyfiyyəti isə onların təkrarı, paralelliyi, həmçinin digər emosionallıq xarakteri ilə bağlıdır. Həm məcazilik bildirən obrazlaşdırıcı dil vasitələrinə və

həm də üslubi yolla ifadə edilən obrazlaşdırıcı elementlərə dair müvafiq tədqiqatlar aparılmışdır. Lakin obrazlaşdırıcı dil vasitələri nitq mədəniyyəti normaları ilə əlaqəli şəkildə təhlil edilmədiyindən onların məntiqi və linqvistik normalarının təhlili məsələsi, demək olar ki, kölgədə qalmışdır. Halbuki bütün obrazlaşdırıcılıq vasitələri anlayışlarının istər ritmiklik, istər ahəngdarlıq, istərsə də məna aydınlığı yolu ilə çatdırılmasında intensivləşmə aparıcı rol oynayır. Qeyd etmək lazımdır ki, son zamanlar intensivləşmənin və onun leksik, morfoloji, sintaktik səviyyələrə aid dil vasitələrinin köməyi ilə reprezentasiyası üsullarının tədqiqinə maraq xeyli artıb. İntensivləşmə nitq mədəniyyətinin əsas prinsipi olduğu üçün normalaşmanın bir çox istiqamətlərinin yaranması da onunla bağlıdır. Obrazlaşdırıcı dil vasitələrində intensivləşmə prinsipi anlayışların daha aktual şəkildə çatdırılması ilə şərtlənir. İntensivləşmə təkcə leksik və morfoloji-sintaktik deyil, həm də kontekstual vasitələrlə ifadə oluna bilər. Bütün bunlar dilin obrazlaşdırıcı vasitələrinin kompleks çoxaspektli təsvirinin aktuallığını, belə tədqiqatın müasir dilçilik elmində lazımlı olmasını göstərir. *Mövzunun aktuallığı* da obrazlaşdırıcı dil vasitələrinin nitq mədəniyyəti ilə bağlılığı kontekstindəki məntiqi və linqvistik əsaslarının araşdırılması, mətnin semantikasının formalaşmasında intensivləşmənin mühüm əhəmiyyəti ilə bağlıdır. Bundan əlavə, işin aktuallığı müasir dilçiliyin insanın dünyanı obrazlı qavrayışının dildə inikası probleminə olan maraqla da şərtlənir.

Mövzunun işlənmə dərəcəsi ilə bağlı onu demək lazımdır ki, ayrı-ayrı tədqiqat əsərlərində, o cümlədən üslubiyyat problemləri ilə bağlı araşdırmalarda obrazlaşdırıcı dil vasitələrindən bəhs olunmuşdur. Obrazlaşdırıcılığın məcazlarla, o cümlədən üslubi fiqurlarla əlaqədar olan prinsipial xüsusiyyətləri məsələlərinə mövcud tədqiqatlarda daha çox diqqət yetirilir. Bu sahədə aparılan işlərə nümunə kimi Ə.Dəmirçizadənin "Azərbaycan dilinin

üslubiyyatı" [1], T.Əfəndiyevanın "Azərbaycan dilinin leksik üslubiyyatı"[2], "Azərbaycan dilinin üslubiyyat problemləri"[3], "Azərbaycan ədəbi dilinin üslubiyyatı"[4], H.Həsənovun "Nitq mədəniyyəti və üslubiyyatın əsasları"[5], M.Vəliyevanın "Azərbaycan dilinin poetik sintaksisi"[6], A.Bəylərovanın "Bədii dildə üslubi fiqurlar"[7] kimi əsərlərini göstərmək olar. Mövcud tədqiqatlarda obrazlaşdırıcı dil vasitələrinin bir çox nəzəri və praktik məsələləri təhlil edilir. Lakin onların məntiqi-linqvistik normaları müəyyən dərəcədə sistemləşdirilməmiş qalır. Bu dissertasiya işində isə başlıca məqsəd obrazlaşdırıcı dil vasitələrinin məntiqi-linqvistik normalarının araşdırılmasından, arqumentləşdirilməsindən və sistemləşdirilməsindən ibarətdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini obrazlı vasitələrin yaradılmasında iştirak edən dil vahidləri, Azərbaycan dilinə məxsus məcazlaşmış və nominativ mənalı obrazlaşdırıcı dil vahidləri təşkil edir. Həm məcazlaşmış, həm də nominativ xarakterli dil vasitələrinin obrazlaşdırıcılıq xarakteri şifahi danışıqda və bədii mətnlərdə öz təcəssümünü tapır. Onların məntiqi-linqvistik normaları da obrazlaşdırıcılıq kontekstində müəyyən edilir. Tədqiqatın predmeti: a) sözlərin ilkin semantikasını genişləndirən leksik-semantik kateqoriyaların, obrazlı dil vasitələri sisteminin üzə

---

[1] Dəmirçizadə, Ə. Azərbaycan dilinin üslubiyyatı / – Bakı: Azərtədrisnəşr, – 1962. – 271 s.

[2] Əfəndiyeva, T. Azərbaycan dilinin leksik üslubiyyatı / T.Əfəndiyeva. – Bakı: Elm, – 1980. – 250 s.

[3] Əfəndiyeva, T. Azərbaycan dilinin üslubiyyat problemləri / T.Ə.Əfəndiyeva. – Bakı: Nurlan, –2007. – 84 s.

[4] Əfəndiyeva, T. Azərbaycan ədəbi dilinin üslubiyyatı / T.Ə.Əfəndiyeva. – Bakı: Elm, – 2011. – 352 s.

[5] Həsənov, H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları / H.Həsənov. – Bakı: Bakı Universiteti, – 1999. – 276 s.

[6] Vəliyeva, M.V. Azərbaycan dilinin poetik sintaksisi / M.V.Vəliyeva. – Bakı: Oka ofset, – 2008. – 128 s.

[7] Bəylərova, A. Bədii dildə üslubi fiqurlar / A.Bəylərova. – Bakı: Nurlan, – 2008. – 212 s.

çıxarılması; b) obrazlaşdırıcı dil vasitələrinin məntiqi və linqvistik norma əsasının müəyyənləşdirilməsi, məntiqi-linqvistik normaların araşdırılması və sistemləşdirilməsidir. Obrazlaşdırıcı dil vasitələrinin ümumi norma əsası intensivləşdiricilikdir. Bununla birlikdə dil vahidlərində fərdilik, ümumilik, qütbləşmiş, eyhamlı və gizli mənalara aid normalar da özünü göstərir.

**Tədqiqatın məqsəd və vəzifələri**.

Tədqiqatın məqsədi, ilk növbədə, obrazlaşdırıcılıq vasitələrinin strukturunun, sisteminin və onların məntiqi-linqvistik norma əsasının müəyyənləşdirilməsindən ibarət olmuşdur. Bu məqsədlə aşağıdakı vəzifələrin yerinə yetirilməsi diqqəti cəlb edir:

1. Məcazlaşmış dil vasitələrinin obrazlaşdırıcılıq xüsusiyyətlərinin öyrənilməsi;
2. Nominativ mənalı dil vahidlərinin obrazlaşdırıcılıq xüsusiyyətlərinin tədqiqi;
3. İntensivləşmənin obrazlaşdırıcı dil vasitələrinin norma əsası kimi müəyyən edilməsi;
4. Obrazlaşdırıcı dil vasitələrində fərdilik normasının müəyyənləşdirilməsi;
5. Obrazlaşdırıcı dil vasitələrində qütbləşmə, gizli və sətiraltı məna normalarının nəzərdən keçirilməsi;
6. Obrazlaşdırıcı dil vasitələrində sözlərin işlədilməsi üzrə məntiqi-linqvistik anomaliyaların üzə çıxarılması;
7. Obrazlaşdırıcı dil vasitələrində ifadəlilik işlədilməsi üzrə məntiqi-linqvistik anomaliyaların aşkar edilməsi;
8. Obrazlaşdırıcı dil vasitələrində cümlələrin işlədilməsi üzrə məntiqi-linqvistik anomaliyaların üzə çıxarılması.

**Tədqiqatın metodları**. Tədqiqat zamanı əsas etibarilə təsviri metoddan istifadə olunmuşdur. Obrazlaşdırıcılıq elementlərinin ənənə və varisliyi məsələsinin şərhində isə, yeri gəldikcə, müqayisə üçün, tarixi, qarşılaşdırma və üslubi metodlardan da istifadə edilir. Təsviri metod çərçivəsində müşahidə, sistemləşdirmə, təsnifat, mətnin linqvostilistik təhlili üsulları da tətbiq edilmişdir.

**Müdafiəyə çıxarılacaq əsas müddəalar**

Müdafiəyə çıxarılacaq əsas məsələlər aşağıdakılardan ibarətdir:

1. Obrazlaşdırıcı dil vasitələri şifahi danışıqda və bədii mətnlərdə fikrin aydın, məntiqli, dürüst və intensiv çatdırılmasına xidmət edir.

2. Obrazlaşdırıcı dil vasitələrinin bütün norma əsasları məna və anlayışların intensivləşdirilməsi yolu ilə tənzim olunur.

3. Obrazlaşdırıcı dil vasitələrinin müəyyən bir qismi məcazlar sistemindən ibarətdir. Onların digər bir qismi isə nominativ dil vasitələrinin təkrarlığı, paralelliyi, yerdəyişməsi, cümlədən kənara çıxması (parselyasiya), ellipsisi və ritorik ifadə tərzi ilə bağlıdır.

4. Obrazlılıq bəzi dil nümunələrində qütbləşmə, eyhamlı və gizli daxili mənalarla ifadə olunur.

5. Obrazlaşdırıcı dil vasitələrinin bir qismində mənalar fərdi norma üzrə sabitləşir.

6. Dil vasitələrinin müəyyən qismində ümumiləşmiş norma aparıcılıq təşkil edir.

7. Dil vahidlərində obrazlaşdırıcılıq yaradılması üçün, xüsusən poetik mətnlərdə pafoslu ifadələrdən istifadə edilir ki, onlar da bəzən ana dilinin üslubi və məntiqi normaları ilə uyuşmayıb, anomaliyaların baş verməsinə səbəb olur.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatın elmi yeniliyi obrazlaşdırıcı dil vasitələrinin normalarının nitq mədəniyyətinə məxsus norma sisteminin bir tərkib hissəsi kimi təhlil edilməsidir. Obrazlaşdırıcı dil vasitələrinə məxsus bütün normativ xüsusiyyətlərin təməli isə nitq mədəniyyətinin intensivləşmə prinsipi təməlində tənzim olunur.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Bu tədqiqat işinin nəzəri əhəmiyyəti obrazlaşdırıcılıq elementlərinin sistemli şəkildə araşdırılması, tədqiqi və təhlili ilə onların norma problemlərinin həll olunmasındakı zərurətlə bağlıdır. Tədqiqatın nəticələri onu göstərir ki, istər poeziya və istərsə də bədii nəsr dilində obrazlaşdırıcılıqla bağlı norma sabitliyi mövcud olmadığından mətnlərdə həm məntiqi və həm də linqvistik anomaliyalar müşahidə edilir. Mətndə məntiqi və linqvistik anomaliyaların kəmiyyət artımı norma səviyyəsinin aşağı düşməsinə səbəb olur. Bu da həm poeziya nümunələrinin və həm də bədii nəsrin poetik vüsətini zəiflədir. Odur ki, poeziya

nümunələrində pafosluluq yaratmaq məqsədilə işlədilən söz, ifadə və cümlələrin məntiqi-linqvistik normalarla uyğunlaşmasını təmin etmək, ana dilimizin rəsmiyyət hüququ qazandığı müstəqillik mərhələsində strateji bir əhəmiyyət kəsb edir. Azərbaycan dili beynəlxalq aləmdəki rəsmi dövlət tədbirlərində səslənir və öz informasiya nüfuzunu getdikcə artırır. Lakin bədii mətnlərdə yol verilən anomaliyalar xarici vətəndaşların Azərbaycan milli mədəniyyəti nümunələri ilə tanışlığında xoşagəlməzlik yaradır. Odur ki, bədii mətnlərin dilində obrazlaşdırıcı vasitələrlə bağlı norma məsələlərinin həllində dilçi mütəxəssislərlə birlikdə təcrübəli bədii sənət ustalarının səylərini birləşdirməyə zəruri bir ehtiyac vardır. Dissertasiya nəticələrinin, həmçinin çox mühüm praktik əhəmiyyəti də vardır. Bu obrazlaşdırıcılıq elementlərinə normaların tətbiqi bədii dilin səlisləşməsini, ahəngdarlığını və anlaşıqlığını tənzimləyir. Normalar yerində olmadıqda ana dilinin özündə bədii mətnin anlaşılması çətinlik yaratdığı kimi, onun başqa dillərə tərcüməsində də anlaşılmazlıq baş verir.

**Dissertasiyanın aprobasiyası və tətbiqi**. Dissertasiyanın ümumi məzmununa aid məqalələr Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qeydiyyatından keçmiş məcmuələrdə çap olunmuşdur. Həmçinin xaricdə çap olunan məqalə Ali Attestasiya Komissiyasının tələblərinə uyğundur. Dissertasiya işinin məzmunu ilə əlaqədar beynəlxalq və respublika səviyyəli elmi konfranslarda çıxışlar edilmişdir. Eyni zamanda, işin ayrı-ayrı müddəaları kafedra tərəfindən təşkil olunan elmi seminarlarda müzakirə edilmişdir.

**Tədqiqat işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya Gəncə Dövlət Universitetinin Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç (3) fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Giriş 4 səhifə, I fəsil 62 səhifə, II fəsil 49 səhifə, III fəsil 29 səhifə. Dissertasiya işi ümumilikdə 167 səhifə, 245 467 işarədən ibarətdir.

# TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılacaq əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktik əhəmiyyəti, dissertasiyanın aprobasiyası və tətbiqi, tədqiqat işinin yerinə yetirildiyi təşkilat, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi barədə məlumat verilir.

***Dissertasiyanın birinci fəsli "Obrazlaşdırıcı dil vasitələrinin strukturu və sistemi"*** adlanır. Bu fəslə aid müddəalar aşağıdakı paraqraflarda şərh olunur:

Birinci fəslin birinci yarımbölməsi **"Obrazlaşdırıcılıq dilin informasiya intensivliyində aktuallaşdırıcı norma kimi"** adlanır.

Bu yarımfəsildə ifadə olunan əsas tezis ondan ibarətdir ki, obrazlaşdırıcılıq vasitələri nitqdə informasiya mübadiləsini canlandırır, hadisələrin təsvirində intensivləşmə yaradır, məlumatların emosional çatdırılmasının təminatçısına çevrilir. Ona görə də obrazlaşdırıcılıq məlumatların intensivləşdirilməsində aktuallaşdırıcılıq vəzifəsini yerinə yetirir. Obrazlaşdırıcı vasitələr nitqdə və bədii təsvirdə emosionallıqla və ekspressivliklə müşayiət olunsa da, onların ifadə vasitələri ümumi dil normaları çərçivəsində işlənir. Odur ki, ancaq linqvistik normalılığın tələblərinə əsaslanan obrazlaşdırıcılıq vasitələri nitqdə, mətndə, bədii təsvirdə hadisələrin canlı ifadəsinə xidmət edir. Əks halda obrazlaşdırıcı vasitələr mətndə ciddi bir effekt verə bilmir və qrammatik cəhətdən düzgün qurulmuş olsa belə, məntiqə görə özünü doğrulda bilmir. Bədii təfəkkürün məhsulu kimi formalaşmış obrazlaşdırıcılıq vasitələri hər hansı bir dildə özünün mental xarakteri ilə səciyyələnir. Yəni hər hansı dildə obrazlaşdırıcı dil vasitələri mövcuddur. Lakin onların təfəkkür qaynaqları hər bir xalqın özünə aid olan etnomədəni xarakterə malikdir. Obrazlaşdırıcı dil vasitələri abstrakt təfəkkür prosesində məcazlaşma ilə bağlı meydana çıxır. Ona görə də dil elementləri fikir və düşüncələrin, təsvir və ifadə vasitələrinin məcazlaşdırılması yolu ilə obrazlaşdırıcı vasitələrə çevrilə bilir. "İzahlı dilçilik terminləri"

kitabında obrazlılıq nitq aktı kimi təqdim olunur. Bədii obrazlılığın isə bədii nitqdə reallaşdığı göstərilir. Burada göstərildiyinə görə, "*obrazlılıq üçün məcazlaşma əsas vasitə olsa da, yeganə deyildir, çünki hər hansı konkret əşya və hadisələri bildirən obraz üçün təməl yarada bilər*"[8]. Məcazlaşma bədii təfəkkürdə formalaşdığına görədir ki, hər hansı nitq elementi təsvir olunan hadisə və bədii ümumiləşdirməyə uyğun şəkildə məcazi məna qazanaraq, obrazlaşma vasitəsinə çevrilə bilir. Dil elementlərinin obrazlaşdırıcı vasitəyə çevrilməsində şifahi nitqin xüsusi rolu vardır. "*Şifahi nitqdə formalaşan obrazlaşdırma vasitələri bədii təxəyyülün məhsulu olan bədii mətnlərdə emosionallığın bariz ifadə vasitəsinə çevrilə bilir, sənətkar tərəfindən təsvir edilən əşya, hadisə və təfərrüatı daha dərindən canlandırır*"[9]. Obrazlaşdırıcı dil vasitələrinin təməli mövcud tədqiqatlarda məcazlaşma ilə, hədəfi isə emosional informasiyaların intensivləşdirilməsi ilə səciyyələndirilir[10]. Obrazlaşdırıcı dil vasitələri bir qayda olaraq məcazlar sistemini təşkil edən sinekdoxa, təşbeh, epitet, mübaliğə, oksimoron, perifraz kimi vasitələrin, təkrir, anafora, epifora, inversiya, xitab, ritorik sual, alleqoriya, antiteza və s. kimi üslubi fiqurların, atalar sözləri və zərbi-məsəllərin, hikmətli sözlər və ibarələr kimi aforistik vasitələrin təməlində formalaşır[11]. Təməli şifahi nitqdən gələn obrazlaşdırıcılıq vasitələri dildə özünə geniş informasiya məkanı yaradır. Belə ki, obrazlaşdırıcılıq vasitələrindən, həmçinin siyasi məzmunlu çıxışların mətnində də anlayışların intensiv çatdırılması məqsədilə istifadə edilir.

---

[8] Adilov, M.İ. İzahlı dilçilik terminləri / M.İ.Adilov, Z.N.Verdiyeva, F.M.Ağayeva. – Bakı: Maarif, – 1989. – 364 s.

[9] Azərbaycan bədii dilinin üslubiyyatı / – Bakı: Elm, – 1970. – s.113.

[10] Cəfərov, S. Müasir Azərbaycan dili / S.Cəfərov. – Bakı: Maarif, – 1970. – s. 105; Xəlilov, B. Müasir Azərbaycan dilinin leksikologiyası / B.Xəlilov. – Bakı: Nurlan, – 2008. – s. 190; Nağısoylu, M. Obrazlaşdırıcı vasitələr: [Elektron resurs]. URL: kayzen. az/blog/Azərbaycan dili /15 454/ üslublar. html.; Cəfərov, M. Azərbaycan dili məsələləri / M.Cəfərov. – Bakı: Elm və təhsil, – 2016. – s. 35.

[11] Bəylərova, A. Bədii dildə üslubi fiqurlar / A.Bəylərova. – Bakı: Nurlan, – 2008. – s. 11; Dəmirçizadə, Ə. Azərbaycan dilinin üslubiyyatı / Ə.Dəmirçizadə. – Bakı: Azərtədrisnəşr, – 1962. – s. 157; Əfəndiyeva, T. Azərbaycan dilinin leksik üslubiyyatı / T.Əfəndiyeva. – Bakı: Elm, – 1980. – s. 70.

Bu mənada tarixən məşhur natiqlərin nitqində emosionallıq və obrazlaşdırıcılıq vasitələrinin işlənməsinə geniş yer verilmişdir[5].

Obrazlaşdırıcı vasitələr özünü dilin ayrı-ayrı səviyyələrinə məxsus elementləri daxilində təcəssüm etdirir. Onların ən bariz nümunələri fonetik, leksik, morfoloji və sintaktik elementlərdə təcəssüm olunur.

Birinci fəslin ikinci yarımbölməsi ***"Fonetik vasitələrdə obrazlaşdırıcılıq"*** adlanır.

Bu yarımfəsildə fonetik elementlərin obrazlaşdırıcılıq vasitəsi kimi işlənməsi üsullarından bəhs edilir. Göstərilir ki, fonetik elementlər, əslində, konkret məna bildirmədiyi üçün məcazlaşma təbiətinə malik deyildir. Lakin bədii mətnlərdə, o cümlədən şifahi dilin məhsulu olan prefirastik və aforistik ifadələrin tərkibindəki təkrar xarakterli fiqurlarda ardıcıllıqla işlədildiyi zaman güclü bir ritorizm, pafos və emosionallıq tərzi yaradır. Bununla da fonetik vahidlərin təkrarlığı özünün emosional təəssüratı ilə obrazlaşdırıcılıq vasitəsinə çevrilir. Fonetik elementlər həm nəzm, həm də nəsr nümunələrində təkrarlaşdırıcı vasitə kimi işlənir. Təkrarlanma cümlələrin və misraların başlanğıcında önqafiyə kimi, cümlə və misra içərisində daxili qafiyə kimi, axırda isə sonqafiyə kimi işlənir. Önqafiyə sisteminin bariz nümunələri "Kitabi-Dədə Qorqud"un həm nəzm, həm də nəsr mətnlərində işlədilərək, təsvir edilən hadisə və situasiyaları obrazlaşdırır: önqafiyə sistemində, bir qayda olaraq, obrazlaşdırıcılıq norması eyni fonetik elementlərin təkrarı ilə ifadə olunur:

*Qarşu yatan qara dağlar*
*Qarıyıbdır, otu bitməz*
*Qanlı-qanlı irmaqlar*
*Quruyubdur, suyu gəlməz*
*Şahbaz-şahbaz atlar*
*Qarıyıbdır, qulun verməz*[6].

---

[5] Yusifov, M. Dahi şəxsiyyətin nitq fenomenliyi / M.Yusifov. – Bakı: – 1977. – s. 24-25; Yusifov, M. Dövlətçilik və dil / M.Yusifov. – Bakı: Nurlan, – 2004. – s. 11; Əsgərov, M.Ə. Natiqlik sənətinin əsasları / M.Ə.Əsgərov. – Bakı: Maarif, – 1975. – s. 21-28.
[6] Kitabi-Dədə Qorqud / – Bakı: Yeni nəşrlər evi, – 1999. – s. 60

*Bayındır xanın yigitləri Dirsə xanı qarşıladılar. Gətirib qara otağa qondurdular. Qara keçə altına döşədilər. Qara qoyun yəxnisindən önünə gətirdilər*[7]. Önqafiyə sistemi yaradılan ritorizm və ahəngdarlıq əsasında baş verən obrazlaşdırıcılıq nümunələri aforistik ifadələrdə də müşahidə edilir:

*Abırlı*
*Abırından qorxar*
*Abırsız nədən qorxar?*[8]
*Ağ gün*
*Adamı*
*Ağardar*
*Qara gün*
*Qaraldar*[9].

Eyni fonetik hadisə və situasiyanı mətndaxili norma səviyyəsində də obrazlaşdırır:

*Qazlıq dağının günahı yoxdur*
*Bitərlidə otlarına qarğamağıl!*
*Qazlıq dağının günahı yoxdur*
*Aslanla qaplanına qarğamağıl!*[10]

Mətndə, həmçinin müxtəlif samitlərin ahəngdarlıq yaratmaq norması üzrə obrazlaşdırıcılıq yaradılır; *b-l*:

*Yar hali dilim zar bilibdir, bilirəm*
*Dili-zarımda nə kim var bilibdir, bilirəm*[11].
*Ç-p*: *Çınqıl daşlı çayları*
*Çapayev çapa-çapa*
*Keçib biçir çöllərdə*
*Çar canavarlarını*
*Çap o çapsın, mən çapım*

---

[7] Kitabi-Dədə Qorqud / – Bakı: Öndər nəşriyyat, – 2004. – s. 211.
[8] Atalar sözü / – Bakı: Öndər nəşriyyat, – 2004. – s. 17.
[9] Yenə orada– s. 22
[10] Kitabi-Dədə Qorqud / – Bakı: Öndər nəşriyyat, – 2004. – s. 33.
[11] Füzuli, M. Əsərləri: [6 cilddə. ] / M.Füzuli. – Bakı: Şərq-Qərb, – c. 1. – 2005. – s. 225.

*Sən çap, qoy biz də çapaq*[12].

Birinci fəslin üçüncü yarımbölməsi ***"Leksik vahidlərdə obrazlaşdırıcılıq"*** adlanır.

Leksik vahidlərin mətni obrazlaşdırıcılıq norması omofon xarakterli elementlərin, sinonim mənalı sözlərin və antonimlərin, həmçinin eyni sözlərin üslubi fiqur kimi təkrar işlədilməsi ilə baş verir. Omonimlərin bir tərkib hissəsi olan omofonlar formaca oxşar olur, mənaca müxtəlif anlayış bildirir. Obrazlaşdırıcılıq onların forma oxşarlığında təcəssüm olunur:

*Qışda dağlar ağ geyinər, yaz qara*
*Sağ dəstinlə ağ kağıza yaz qara.*
*Əsər yellər qəhr eyləyər yaz qara*
*Daşar çaylar, daşlar gələr çata-çat*[13].

Sinonimlərin obrazlaşdırıcılığı onların eyni hadisəni, obyekti və hadisəni yaxın mənalarla ifadə etməsində müşahidə olunur:

*İxtilatın şirin, sözün məzəli*
*Şəkər gülüşündən ellər təzəli*
*Ellər yaraşığı, ölkə gözəli*
*Nə gözəl doğlubsan anadan, Pəri*![14]

Antonimlərin obrazlaşdırıcılığı kontrastların qarşılaşdırılmasında ifadə olunur:

*Ey deyən səbr qıl, ar eyləmə yari göricək*
*Mənə düşvardır ol gər sənə asan görünür*[15].

Eyni sözlərin təkrarı ilə baş verən obrazlaşdırıcılıq hadisə, situasiya və təsvir obyektinə dair informasiyanın canlı ifadəsini qabarıqlaşdırır:

*Qərib-qərib durduq biganələr tək*

---

[12] Rüstəm, S. Əsərləri. Şeirlər və poemalar / S.Rüstəm. – Bakı: Yazıçı, – c. 2. – 1984. – s. 46.

[13] Aşıq Ələsgər. Əsərləri. Dastan-rəvayətlər, xatirələr / A.Ələsgər. – Bakı: Şərq-Qərb, – 1999. – s.180.

[14] Vaqif, M.P. Əsərləri / M.P.Vaqif. – Bakı: Şərq-Qərb, – 2004. – s. 41.

[15] Füzuli, M. Əsərləri: [6 cilddə] / M.Füzuli. – Bakı: Şərq-Qərb, – c. 1. – 2005. – s. 143.

*Soyuq-soyuq baxdıq divanələr tək*
*Dönmədik başına pərvanələr tək*
*Eşq oduna yanışmadıq, ayrıldıq*[16].

Birinci fəslin dördüncü yarımbölməsi ***"Morfoloji və sintaktik vasitələrdə obrazlaşdırıcılıq"*** adlanır.

Morfoloji vasitələrin obrazlaşdırıcılıq vasitəsi kimi emosionallıq yaratmaq normasında da onların üslubi fiqur tərzində təkrar işlədilməsi mühüm əhəmiyyət kəsb edir. Morfoloji vasitələrin təkrarlığı daim eyni situasiya və məqamda işlədilmir. Onlar həmcins üzvlərdə ardıcıl təkrar kimi, paralel konstruksiyalarda sinonim qoşalaşma kimi, əkslik məqamlarında ziddiyyətlərin qarşılaşdırılması kimi emosional çalarlıqları canlandırır: a)*həmcins üzvlərdə təkrar kimi işlənənlər*: *"Çapovulçu dördqatar oğlanları öz həyatində, öz qapılarında, öz eyvanında, öz otağında görəndə özünü mahalın padşahı sayırdı"*[17]; b) *paralel komponentlərdə işlənənlər*: *"hər kim Qoşabulağın suyundan içsə, aşıq olar. Özünün də səsi elə güclü olar ki, nərəsindən meşədə aslanlar ürkər, quşlar qanad salar, atlar dırnaq tökər"*[18]; c) *ziddiyyətli qarşılaşma məqamında işlənənlər:*

*"Biz də düz üç gün sizi gözləyəcəyik.*
*Gəldiz, gəlibsiz, gəlmədiz, onda uşaqlar dalınızca gələcək"*[19].

Sintaktik vasitələrin obrazlaşdırıcılıq norması da müvafiq olaraq sintaktik paralellərin ritorik cümlələrin, inversiyalı və parselyasiyalı cümlələrin yaratdığı üslubi fiqurlarda ifadə olunur: a)*sintaktik paralellərdə*: *Qılıncdan murad hasil olmadı, əmuda əl atdılar; əmuddan murad hasil olmadı, nizəyə əl uzatdılar.*[20]

b) ritorik cümlələrdə:

*Səba, məndən söylə ol gülüzarə*
*Bülbül gülüstanə gəlsin, gəlməsin?*
*Bu hicran düşkünü, illər xəstəsi*

---

[16] Vaqif, M.P. Əsərləri / M.P.Vaqif. – Bakı: Şərq-Qərb, – 2004. – s.19.
[17] Mir Cəlal. Seçilmiş əsərləri / – Bakı: Çaşıoğlu, – 2008. – s. 67.
[18] Koroğlu / – Bakı: Azərb. EA, – 1959. – 508 s.
[19] Koroğlu dastanı / – Bakı: Azərb. EA, – 1959. – 128.
[20] Yenə orada. – s. 42.

*Qapına dərmana gəlsin, gəlməsin?*[21]

c) inversiyalı cümlələrdə:

*Min bağın-bağçanın barı məndədir*
*Sinəm oylağıdır gözəlliklərin*[22].

ç) parselyasiyalı cümlələrdə:

*Uşaqlar sürüşə-sürüşə çətirin qırağınacan gəlir, bir anlığa sallanıb baxırlar: Bığıburma bir kişidi*[23].

Obrazlaşdırıcılıq bədii mətndə dil elementlərinin ardıcıl işlənməsi ilə, paralel konstruksiyaların zəngin ənənələrindən istifadə ilə, emosionallıqla, intonasiya və digər qeyri-verbal ifadə üsulları ilə təzahür edərək bədii mətndə ritm, ahəngdarlıq, pafos, ritorizm yaradılmasına xidmət edir.

***Dissertasiyanın "Obrazlaşdırıcı dil vasitələrinin norma prinsipləri"*** adlanan ikinci fəslinə aid müddəalar aşağıdakı paraqraflarda izah edilir:

İkinci fəslin birinci yarımbölməsi ***"Obrazlaşdırıcı dil vasitələrində fərdi normalılıq prinsipi"*** adlanır.

Bu yarımfəsildə obrazlaşdırıcı dil vasitələrinin fərdi normalılıq prinsipi konkret dil materialları üzrə təsbit olunur. Onu da qeyd etmək lazımdır ki, obrazlaşdırıcı dil vasitələrində fərdilik və ya ümumilik prinsipi məsələsinin qoyuluşu dil faktları əsasında müəyyən edilən ilk təcrübədir. *"Fərdilik prinsipi onunla səciyyələnir ki, məcazlaşmış dil elementinin obrazlaşdırıcılıq xüsusiyyəti fərdi şəxslərə, hadisə, əşya və ya situasiyalara aid olsun. Bu normalılıq üzrə baş verən obrazlaşdırıcılıq dilin ifadə imkanlarını konkretliklə, dəqiqliklə bir hədəfə yönəldir"*[24]. Belə obrazlaşdırıcı vasitələrin

---

[21] Nəbati, Ə. Seçilmiş əsərləri / Ə.Nəbati. – Bakı: Şərq-Qərb, – 2004. – s.147.

[22] Vurğun, S. Seçilmiş əsərləri / S.Vurğun. – Bakı: Azərnəşr, – c. 2. – 2005. – s.18.

[23] Süleymanlı , M. And olsun əsrə / M.Süleymanlı. – Bakı: YYZA, – 2016. – s. 649.

[24] Əfəndiyeva, T. Azərbaycan dilinin leksik üslubiyyatı / T.Əfəndiyeva. – Bakı: Elm, – 1980. – s. 75; Qasımova, K. Sözün məcazi mənası // – Bakı: Filologiya məsələləri, – 2013. № 3, – s. 220.

məcazi mənalarında sinonimlik keyfiyyətinin olması da istisna deyildir.

Azərbaycan dilində fərdilik normasına uyğun olan və obrazlaşdırıcılıq keyfiyyəti hər hansı konkret bir hədəfə yönəldilən dil vasitələrinə dair aşağıdakı kimi nümunələri misal göstərmək olar:

*Ağız-dəfə. Ağız* sözü çoxmənalılığa görə *qapının ağzı, çayın ağzı, dərənin ağzı, yolun ağzı* və digər ifadələrin tərkibində də işlənir. *Ağız* sözü obrazlı şəkildə *dəfə* mənası üzrə daha çox "Bir ağız ağlamaq" ifadəsinin tərkibinə daxil olur. *Ağız* sözü ilə ifadə olunan *dəfə* mənası, həmçinin ona məcazi sinonim olan *əl* sözü ilə də ifadə olunur: *"Bir əl oynamaq"*.

*Ac-möhtac. Ac* sözü nominativ mənada *ac* qalmaq anlayışı bildirir. Lakin bu söz həm də *ac qurd* (gözüdoymayan), *ac adam* (aclıqda olan adam), *ac ölkə* (yoxsul ölkə), *ac canavar* (həris canavar) kimi konkret hədəf bildirən anlayışlarla səciyyələnir.

*Ağbirçək-müdrik* (qadın). *Ağbirçək* sözü nominativ mənada yaşlaşmış, yaşa dolmuş qadın mənasını bildirir. Məcazi mənada isə ağbirçək sözü *ağıllı, müdrik, ağlabatan məsləhətləri ilə ehtiram qazanmış qadın* anlayışını ifadə edir.

Obrazlaşdırıcılığın fərdi normaya uyğun hər hansı konkret hədəfə aid olması üzrə funksionallaşdırıldığı dil vahidləri içərisində morfoloji və sintaktik derivatların da mühüm rolu vardır. Azərbaycan dilinin sözyaratma qaydaları zəngin olduğu üçün bu üsulla formalaşan obrazlaşdırıcı nümunələrin də potensialı geniş olur. Onların obrazlaşdırıcılıq keyfiyyətləri bilavasitə məcazlaşmanın gücü və təsiri ilə müəyyən edilir. Bu mənada eyni bir sözün ayrı-ayrı anlayışlarla səciyyələnən məcazi məna çalarlıqları baş verir: a) *morfoloji derivatlarla: ağırlaşma - yükü, çəkisi çoxalma, tənbəlləşmə, çətinləşmə, gərginləşmə, pisləşmə, yoğunlaşma, süstləşmə, şiddətlənmə* və s.; b)*sintaktik derivatlarda*: *dördböyrək - cəsur, qorxmaz, igid; gözüaçıq - fərasətli, qoçaq, ayıq, işbilən; istiqanlı - mehriban, ünsiyyətli, adamayovuşan* və s.

İkinci fəslin ikinci yarımbölməsi ***"Obrazlaşdırıcı dil vasitələrinin ümumi normalılıq prinsipi"*** adlanır.

Bu yarımfəsildə göstərilir ki, obrazlaşdırıcı dil vasitələrinin ümumilik norması ifadənin məzmunu və hədəfi fərdi şəxslərə, hadisə və situasiyalara deyil, ümumi şəxslərə, eyni zamanda, bütün zamanlara aid olur. Ona görə də ümumdil norması üzrə baş verən obrazlaşdırıcılıq ibrətamiz xarakter daşıyır. Bu da ondan irəli gəlir ki, ümumi məzmunlu obrazlaşdırıcılıq vasitələri etnik-ictimai xarakterə malik olur. Belə obrazlaşdırıcılıq vasitələri zamanın sınaqlarından keçərək, məzmun cəhətdən zənginləşir və bununla da mental xarakter daşıyır. Ümumi normalılıqla səciyyələnən obrazlaşdırıcılıq daha çox təmsillərdə, frazeoloji birləşmələrdə, atalar sözləri və zərbi-məsəllərdə, eləcə də aforistik dil vasitələrində ifadə olunur. Bədii təfəkkürdə ümumiləşən bu tipli obrazlaşdırıcılıq vasitələrindən hadisələrin şifahi təsvirində, bədii mətnlərdə, eləcə də anlayışların intensiv çatdırılması ilə əlaqədar söylənilən fikir və mülahizələrdə öz təcəssümünü tapır. Təmsillərdə obrazlaşdırıcılıq alleqorik tərzdə ifadə olunur. Təmsillərdə təsvir olunan bədii obrazlar vasitəsilə insan həyatına dair hadisə və əhvalatlar ümumiləşdirilir, ibrətamiz nəticə hasil olunur. "*Təmsil janrı eradan əvvəl VI əsrdə yaşamış qədim yunan mütəfəkkiri Ezopun yaradıcılığında mühüm rol tutmuşdur. Ezopun təmsilləri sonrakı dövrlərdə bir çox Qərb sənətkarlarının ilham mənbəyinə çevrilmişdir"*[25]. Təmsil janrı Şərq aləminin bədii təfəkkürünün məhsulu olan "Kəlilə və Dimnə"də, eləcə də Nizami, Füzuli, Qasımbəy Zakir, Mirzə Ələkbər Sabir, Seyid Əzim Şirvani, Abdulla Şaiq kimi böyük sənətkarların yaradıcılığında da aparıcı mövzulardan birinə çevrilmişdir.

Obrazlaşdırıcılıq vasitələrinin mühüm növlərindən biri kimi bədii mətnlərdə frazeologizmlərin də mühüm rolu vardır. Frazeologizmlərdə xalqın ictimai-məişət həyatı bədii təfəkkürdə ümumiləşdirilərək canlı obraz yaradır. Frazeologizmlər kimi atalar sözü və zərbi-məsəllər, hikmətli sözlər və aforizmlər də istər şifahi

---

[25] Portal.azertaq.az/az/node/2724

nitqdə və istərsə də bədii mətnlərdə ümumiləşdirilmiş canlı obrazlılıq yaradılmasına xidmət edir.

İkinci fəslin üçüncü yarımbölməsi ***“Obrazlaşdırıcı dil vasitələrində zahiri və daxili normalılıq prinsipi”*** adlanır.

Obrazlaşdırıcı vasitələrdə zahiri və daxili normalılıq ona əsaslanır ki, müəyyən dil nümunələrində zahiri mənalılıq təkcə üzdə olan anlayışları bildirmir. Həm də həmin nümunələrdə daxili anlayışlar da ümumiləşir. Lakin çox zaman zahiri, üzdə olan məna asanlıqla qavranılır. Bu məna, əlbəttə ki, anlayışların ümumiləşdirilməsinə əsaslanmaqla hikmətamiz xarakter daşıyır və təsvir olunan obyektə dair emosional çalarlıq yaratmaqla obrazlaşdırıcı vasitəyə çevrilir. Lakin bir çox hallarda onun daxili mənası, əsas hədəfi diqqətdən yayınmış olur. Ancaq həmin nümunələr hər iki halda obrazlaşdırıcılıq xarakteri daşıyır. Belə nümünələrə daha çox xalq təfəkküründən süzülüb cilalanan atalar sözlərində, hikmətli sözlərdə, zərbi-məsəllərdə, eyni zamanda, aforistik ifadələrdə rast gəlmək olur. Məsələn, “*Bal tutan barmaq yalayar*” atalar sözü ilk baxışdan “zəhmət çəkən şəxs öz zəhmətinin bəhrəsini yeyər” təəssüratı yaradır. Lakin burada batini, daxili, gizli məna “Bal tutanın qazancının barmaq yalamaq qədər olduğu” anlayışı ilə səciyyələnir. Balın feyzi isə bal sahibinə aiddir. Yaxud “Bəylə bostan əkənin tağı çiynində bitər” atalar sözünün daxili mənası belə anlaşılır: “Bəylə bostan əkən zəhmət çəkir, məhsul yetişdirir, məhsula bəy sahib olur, zəhmətkeşə isə sovuşmuş bostan tağlarını çiynində daşımaq qalır”. Azərbaycan xalq hikmətləri zahiri və daxili məna incəlikləri ilə zəngindir və bu zənginlik çox güclü bir obrazlaşdırmanın baş verməsinə zəmin yaradır. Zahiri və daxili obrazlaşdırma normasının ənənələrindən bədii nümunələrdə məharətlə istifadə olunur. Müəllif dövrlə, zəmanə ilə, hər hansı hadisə və situasiya ilə bağlı öz düşüncələrini açıq deyə bilmədikdə onu müəyyən üsullarla pərdələyir və bu halda daxili obrazlaşdırıcılıq icbari xarakter alır. Bu tipli obrazlaşdırıcılıq vasitələrinə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri olan Mikayıl Müşfiqin, Süleyman Rüstəmin, Rəsul Rzanın, Səməd Vurğunun, Əli Vəliyevin və digər sənətkarların əsərlərində rast gəlmək olur. Məsələn, Səməd

Vurğunun "Vaqif" dramında Vidadinin adından deyilən, "Xudaya, insanın halı yamandır; Nələr çəkdiyimiz sənə əyandır" misraları məhz Səməd Vurğunun öz dövründə əhalinin çəkdiyi sıxıntıların təzahür forması kimi mənalandırılmışdır. Azərbaycan dilində atalar sözlərindəki, zərbi-məsəllərdəki, hikmətli sözlərdəki və aforizmlərdəki ixtiyari obrazlaşdırma ilə bədii nümunələrdəki icbari obrazlaşdırma vasitələri olduqca zəngindir. Onların başlıca hədəfi isə hadisə, əşya, situasiya və təsvir obyektinin canlandırılmasıdır.

Obrazlaşdırıcı dil vasitələrində zahiri mənalılıq hamının birmənalı olaraq başa düşdüyü anlayışlardan ibarətdir. Zahiri mənalılıq nominativ məntiqlə ifadə olunur, məntiqlə qrammatik quruluşun vəhdəti mühitində baş verir. Obrazlaşdırıcı dil vasitələrindəki daxili mənalılıq daha çox alleqorikləşmiş şəkildə ifadə olunur.

***Dissertasiyanın "Obrazlaşdırıcı dil vasitələrinin normalarında baş verən anomaliyalar"*** adlanan üçüncü fəslinin ümumi məzmunu aşağıdakı paraqraflarda şərh edilir:

Üçüncü fəslin birinci yarımbölməsi ***Obrazlaşdırıcı vasitələrdə anomaliyaların baş vermə səbəbləri*** adlanır.

Dillərin tipoloji tədqiqi və təhlili təcrübəsi belə bir mülahizə irəli sürməyə əsas verir ki, aqlütinativ dillərdə məcazlaşmaya meyillilik analitik-flektiv dillərə nisbətən daha çox üstünlük nümayiş etdirir. Bu da onunla izah edilə bilər ki, aqlütinativ dillərdən biri kimi Azərbaycan dilində silsilə şəkilçi prinsipi üzrə bir sözdən bir neçə söz yaradılmasını şərtləndirir. Əlavə mənalara yaranan ehtiyac isə məcazlaşma yolu ilə təmin olunur. Odur ki, Azərbaycan dilində məcazlar sistemi və üslubi fiqurlar zəngin və rəngarəng məna xüsusiyyətləri yaratmağa meyillidir.

*"Azərbaycan dilinə məxsus məcazi mənalılıq keyfiyyətləri üzrə zəngin frazeoloji potensialın idiomatik ifadələrini və digər həmhüdud paradiqmaların formalaşması da bu dildə məcazlaşma üzrə*

*obrazlaşdırıcılıq meyillərinin üstünlük təşkil etdiyinin bariz nümunəsidir”*[26].

Azərbaycan dilində məcazi mənalılıq keyfiyyətinin üstünlüyü obrazlaşdırıcı dil vasitələrindən struktur, üslubi və məntiqi cəhətdən düzgün istifadə olunmasını tələb edir. Bu sahəyə həsr olunan çoxsaylı tədqiqatlarda da doğru olaraq sözlərin ifadə və cümlələrin struktur, üslubi və məntiqi cəhətdən normaya uyğun olaraq düzgün işlədilməsinə riayət etmək tələbləri ortaya qoyulur.

Üçüncü fəslin ikinci yarımbölməsi ***“Sözlərə aid anomaliyalar”*** adlanır.

Bədii mətnlərdə sözlərin obrazlaşdırıcılıq keyfiyyəti onların normaya uyğun işlədilməsini tələb edir. Lakin müəyyən hallarda sözlərin öz yerində işlədilməməsi onların anlayış prinsipini pozur və bununla da sözün obrazlaşdırıcılıq keyfiyyəti itir. Bu mənada ki, obrazlaşdırıcılıq məqsədilə işlədilən söz mətnə əlavə emosional, estetik çalarlıq gətirmək əvəzinə, onu məna incəliklərindən uzaqlaşdırır. Belə anomaliyalara hətta tanınmış sənətkarlara məxsus bədii nümunələrdə də rast gəlmək olur: *“İnsan dünyanın cəmi yerlərini, dağlarını, düzlərini, dəryalarını ayaqları altına alıb gəzdi”*[27]. *“Bu saat sənin üçün darçın çayı bişirərəm”*[28], *“Kənddə birinci xoruz banı idi. Avqust göylərində tez-tez ulduzlar axırdı”*[29]. Bu cümlələrdəki sözlərin işlədilməsində qrammatik norma yerindədir. Lakin sözlər ifadə etdiyi mənaya görə uyğunsuz işlədilir. Beləliklə də, norma məntiqi pozulur. Birinci cümlədə dəryaları ayaq altına alıb gəzmək məntiqi cəhətdən özünü doğrultmur. Çünki

---

[26] Əliyev, K. Üslubiyyatda frazeologiyanın yeri //Azərbaycan dilçiliyi məsələləri. – Bakı: Azərb.EA, – 1967. – s. 36-47; Rəhimzadə, N. Azərbaycan dilində idiomatik ifadələrin morfoloji əlamətə görə təsnifi //Azərbaycan dilçiliyi məsələləri. – Bakı: Azərb.EA, – 1967. – s. 48-64.

[27] Haqverdiyev, Ə. Seçilmiş əsərləri / Ə.Haqverdiyev. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1971. – s. 30.

[28] Yenə orada – s. 45.

[29] Məmmədxanlı, Ə. Seçilmiş əsərləri: [2 cilddə] / Ə.Məmmmədxanlı. – Bakı: Yazıçı, – c. 1. – 1985. – s. 7.

dəryaları ayaq altına yox, gəmi və ya digər vasitələrlə gəzərlər. İkinci cümlədəki *çayı bişirmək* ifadəsində *bişirmək* sözü yerində deyildir. Çayı bişirməzlər, qaynadarlar. Üçüncü cümlədəki *avqust göyləri* ifadəsi özünü doğrultmur. Burada avqust göyləri yox, avqust gecələri işlədilməli idi. Belə anomaliyalara xalq mahnıları adı ilə tanınan şənlik, mərasim nəğmələrində də rast gəlmək olur:

*Döngələrdə duran oğlan*
*Mənə kirpik vuran oğlan*
*Ver mənim güllü başmağım*[30].
*Araz qırağı çiçək*
*Oraq gətir gül biçək*[31].

Bu nümunələrdə *kirpik, biçmək* sözlərində sözün yerində işlədilməməsi məntiqi pozur. Kirpik vurmazlar, göz vurarlar; gülü biçməzlər, dərərlər.

Üçüncü fəslin üçüncü yarımbölməsi ***"İfadələrə aid anomaliyalar"*** adlanır.

Bədii mətnlərdə ifadələrin də normaya uyğun qaydada düzgün seçilməməsi də məntiqi anomaliyaların baş verməsinə səbəb olur. Belə mətnlərdə məntiqi anomaliyaların baş vermə səbəbi əsas etibarilə sənətkarların pafosluluğa meyilliliyinin nəticəsi hesab edilə bilər. Müəllif sanki pafosluluq yaratmaqla obrazlılığa nail olmaq istəyir, lakin bu da mətndə məntiqi normanın pozulmasına gətirib çıxarır. Bu cəhətdən aşağıdakı nümunələri misal gətirmək olar:

*Öpmüşəm dərdli anaların dümağ başından*
*Gözlərinin eşqimizlə sildim yaşını*[32].
*Böyük Nizaminin əziz məzarı*
*Uzaqlarda deyil, bu yaxındadır*[33].
*Unutdum*
*Tüstülü daxmasında*

---

[30] Şənlik, mərasim nəğmələri / – Naxçıvan: Əcəmi, – 2010. – s. 45.
[31] Yenə orada – s. 45.
[32] Rüstəm, S. Seçilmiş əsərləri: [2 cilddə] / S.Rüstəm. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – c. 1. – 1976. – 349 s.
[33] Yenə orada – 42 s.

*Babamın aciz xülyalarını*[34]*. Bir az vaxtın zərfində hacının tamam pozğun işləri nizama düşldü*[35]*.*

Verilən nümunələrdən göründüyü kimi, *dümağ baş, əziz məzar, aciz xülya, pozğun işlər* ifadələri məntiqi cəhətdən özünü doğrultmur. Bunları müvafiq qaydada, məntiqə uyğun olaraq *dümağ saç, qədim məzar, boş xülya, xam xülya, pozulmuş işlər* kimi işlətmək məntiqə görə daha münasib sayılardı. Bəzi hallarda obrazlaşdırıcılıq məqsədilə işlədilən ifadələrdə üslubi naqislik də özünü göstərir ki, bu da nəticə etibarilə məntiqi anomaliyalara gətirib çıxarır. Məsələn, Ə.Haqverdiyev *car çəkmək* əvəzinə *car çağırmaq*[36], Məmməd Rahim *işıqlı mənzil* əvəzinə *günəşli mənzil*[37], S.Rüstəm ağ günlü bəxtəvər əvəzinə ağ günlü qoçaq[38] ifadələrini işlədir ki, bunlar da üslubi cəhətdən özünü doğrultmadığı kimi, məntiqi cəhətdən də məna uyğunluğuna müvafiq deyildir.

Üçüncü fəslin dördüncü yarımbölməsi ***"Cümlələrə aid anomaliyalar"*** adlanır.

Sözlərdə və ifadələrdə məntiqi və üslubi naqisliklər, dil vasitələrinin düzgün seçilməməsi obrazlaşdırıcılıq normalarının pozulmasına səbəb olduğu kimi, belə anomaliyalara müəyyən cümlə quruluşlarında da təsadüf edilir. Şübhəsiz ki, bu tipli anomaliyaların baş alıb getməsi daimi ənənəyə çevrilə bilməz. O yerdə anomaliyalar baş qaldıra bilər ki, orada dilin ümumi normalarının özü boşluqlarla üzləşmiş olsun. Lakin dildə ümumi normalılıq prinsipləri inkişaf etdikcə, normadaxili sabitlik yarandıqca anomaliyaların aradan qalxmasına da münbit şərait yaranacaq. Müasir dövrdə Azərbaycan

---

[34] Vurğun, S. Seçilmiş əsərləri: [2 cilddə] /S.Vurğun. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – c. 1. – 1986. – s. 49.
[35] Haqverdiyev , Ə. Seçilmiş əsərləri / Ə.Haqverdiyev. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1971. – s. 32.
[36] Yenə orada – s. 146.
[37] Rahim, M. Seçilmiş əsərləri: [ 2 cilddə] / M.Rahim. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – c. 1. – 1955. – s. 17
[38] Rüstəm, S. Seçilmiş əsərləri: [2 cilddə] / S.Rüstəm. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – c. 1. – 1976. – s.16

dili müstəqil dövlətin rəsmi dili olduğu üçün normaların sabitləşməsi daha zəruri tələbata çevrilir. Bu da informasiyaların intensivliklə yayılmasına olan təminatın ödənilməsi üçün mühüm şərtlərdən biridir. Cümlələrdə müşahidə olunan anomaliyalara dair nümunələrdə də pafosluluğa meyillilik müşahidə edilir. Ancaq pafos o halda emosiya və obrazlaşdırmaya çevrilir ki, orada məntiq pozulmasın. Məntiq pozulduğu halda pafos öz əhəmiyyətini itirir və cümlə mənaca dolaşıq söz yığını kimi təəssürat yaradır. Məsələn, Mikayıl Müşfiqin işlətdiyi "*Bir bölük uşaqdır şən ləpələr"*[39]; Ə.Vəliyevin işlətdiyi "*Piyalələrin isə öpüş səsləri yüksəldi"*[40]; Səməd Vurğunun işlətdiyi "*Üstünə od kimi düşdülər işin"*[41] cümlələrində ümumi məntiqi anomaliyalar müşahidə olunur.

Dildə obrazlaşdırma məqsədilə işlədilən, lakin normadan kənara çıxan söz, ifadə və cümlələrin quruluşuna diqqət yetirmək sənətkarlar üçün vacib tələbdir. Çünki bədii əsərlərdə insan həyatı, onun məişəti, fəaliyyəti obrazlaşdırılır, ibrətamiz hədəfə çevrilir. Eyni zamanda, hər bir bədii nümunə zamandan zamana ötən günlərin xatirəsini canlandırır. Burada xalqın mənəvi varlığı, həyat idealı, vətənpərvərlik duyğuları ümumiləşdirilir. Norma sabitliyi isə hər bir informasiyanın dəqiq, aydın, konkret ötürülməsi üçün əvəzsiz bir təminat yaradır.

Dissertasiya işinin "**Nəticə**" hissəsində əldə olunan elmi qənaətlər aşağıdakı kimi ümumiləşdirilmişdir:

Dissertasiyaya aid ümumi nəticələr aşağıdakılardan ibarətdir:

1. Obrazlaşdırıcı dil vasitələri şifahi danışıqda və bədii mətnlərdə anlayışların intensivləşdirilməsinə, emosionallığın canlandırılmasına, ritmiklik və ahəngdarlıq yaradılmasına, hadisə və situasiyaların yaddaqalan olmasına xidmət edir.

---

[39] Müşfiq, M. Seçilmiş əsərləri / M.Müşfiq. – Bakı: Şərq-Qərb, – 2004. – s. 172.
[40] Vəliyev, Ə. Seçilmiş əsərləri: [6 cilddə] / Ə.Vəliyev. – Bakı: Azərbaycan Dövlət Kitab Palatası, – c. 1. – 1969. – 135 s.
[41] Vurğun, S. Seçilmiş əsərləri / S.Vurğun. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – c. 1. – 1986. – s. 191.

Obrazlaşdırıcı dil vasitələrinin özünəməxsus strukturu və sistemi vardır. Bunların bir qismi məcazlaşmış məna üzrə motivləşdiyi halda, digər qismi nominativ mənalı vahidlərdən ibarət olur. Məcazi mənalı dil vahidləri özlərinin bildirdiyi anlayışlara müvafiq obrazlaşdırıcılıq yaratdığı kimi, nominativ mənalı elementlər obrazlaşdırıcılığı müəyyən təkrarlaşma, paralelləşmə, hətta daxili, gizli mənalar əsasında ifadə edir.

2. Məcazi mənalı obrazlaşdırıcılıq vasitələrinə məcazlar sistemini təşkil edən bütün elementlər daxildir. Bunlar metaforlardan, metonimiyalardan, epitetlərdən, hiperboladan, litotadan, mübaliğədən, sarkazmdan, antonomaziyadan, frazeologizmlərdən, atalar sözləri və zərbi-məsəllərdən və s. ibarətdir. Nominativ obrazlaşdırıcılıq elementləri fonetik, leksik, morfoloji və sintaktik vasitələrin təkrarlarından, paralelləşməsindən, həmçinin anaforadan, epiforadan, ellipsisdən, ritorikadan, inversiyadan, parselyasiyadan və s. ibarətdir.

3. Fonetik vahidlərin obrazlaşdırıcılığı eyni elementlərin başlanğıcda ritm, söz tərkibində ardıcıllıq, poetik nümunələrdə qafiyə yaradılmasında özünü göstərir. Bu da fonetik vahidlərin ümumi obrazlaşdırıcılıq normasını təşkil edir. Fonetik vahidlərin obrazlaşdırıcılığı ilə bədii mətnlərdə ritm, ahəngdarlıq və emosiyalar canlandırılır.

4. Leksik vahidlərdə obrazlaşdırıcılıq norması iki istiqamətdə baş verir. Birincisi məcazlar sistemi vasitəsilə müşayiət olunan normalılıqdan ibarətdir. Məcazların məntiqi norması onların müxtəlif variantlar üzrə baş verən valentlik xarakteri ilə müəyyən edilir. İkincisi leksik vahidlərin obrazlaşdırıcılığının nominativ məna üzrə baş verən normalılığıdır. Leksik vahidlərdə məcazlaşma hesabına baş verən emosionallıq obrazlaşdırmaya xidmət etdiyi kimi, nominativ mənalı leksik vahidlərin ardıcıllığı, sırası, təkrarı və paralelliyi də obrazlaşdırma vasitəsinə çevrilir.

5. Morfoloji vahidlərdə obrazlaşdırıcılıq qrammatik elementlərin cümlə tərkibinə daxil olan sözlərin tərkibindəki ardıcıllıq üzrə baş verir. Bu halda mətnin məntiqi tutumu canlanır, emosionallıq artır və poetik ifadə tərzi baş verir. Qrammatik

elementlərin məntiqi norması anlayışların intensivləşməsi ilə, linqvistik norması isə həmin elementlərin ardıcıllığı, silsiləvi düzülüşü ilə cümlə ahəngdarlığı yaratması üzrə təmin olunur.

6. Sintaktik vasitələrdə cümlə üzvlərinin yerdəyişməsi ilə baş verən inversiyalar, cümlənin bir tərkib hissəsi kimi ondan ayrılan parselyasiyalar, ritorik cümlə növləri və ellipsis bilavasitə mənanın intensivləşdirilməsinə, hadisə və situasiyanın, təsvir obyektinin obrazlaşdırılmasına xidmət edir. Sintaktik vasitələrin obrazlaşdırıcılığı, həmçinin frazeologizmlərdə, atalar sözləri və məsəllərdə, gizli və sətiraltı mənalar bildirən mətni nümunələrdə müşahidə edilir.

7. Dil vahidlərində fərdiləşdiricilik və ümumiləşdiricilik, qütbləşdiricilik norması da müşahidə olunur. Fərdilik norması bir sözün məcazi mənasının bir hadisəyə, bir şəxsə və ya bir situasiyaya aid olması mənasında başa düşülür. Bu norma üzrə işlədilən obrazlaşdırıcılıq vasitələrində intensivləşmənin bir hədəfi olur. Üslubi cəhətdən də həmin hədəf qabarıqlaşdırılır.

8. Ümumiləşdiricilik norması onda özünü göstərir ki, burada ifadə olunan anlayış fərdə yox, hamıya şamil olunur. Bunlar daha çox frazeologizmlərdə, atalar sözləri və zərbi-məsəllərdə, hikmətli sözlərdə, aforizmlərdə müşahidə edilir. Həm fərdiləşdirici, həm də ümumiləşdirici norma üzrə yaranan dil vasitələri mental xarakterli olur, obrazlı təfəkkürün məhsulu kimi formalaşır. Belə dil vahidləri leksik vahidlərin ifadə imkanlarına sığmayan anlayışları obrazlı şəkildə canlandırmağa xidmət edir.

9. Obrazlaşdırıcı dil vasitələrinin müəyyən qismində daxili məna normalılığı aparıcı yer tutur. Bunlar əsas etibarilə nominativ xarakterli ifadə vasitələri üzrə verilsə də, onlarda ikili məna bildirilir. Bunlar daxili, gizli və sətiraltı mənalarla müşayiət olunur. Onların bir qismi qütbləşmiş mənalardan ibarətdir. Qütbləşmiş mənalar daha çox klassik mənbələrdə müəyyən təriqətçiliklə bağlı olaraq fikir və düşüncələri gizli ifadə etmək məqsədi daşıyır.

10. Daxili məna normalılığa əsaslanan mətnlərin bir qismi alleqorik məzmunda yazılan əsərlərdə müşahidə edilir. *Alleqorik məzmunda* yazılan əsərlərdə rəmzi vasitə kimi heyvanlardan,

quşlardan və digər canlılardan istifadə edilir. Daxili məna da həmin canlıların xarakterinə uyğun (tülkü-hiyləgər, çaqqal-qorxaq, canavar-yırtıcı, xain, aslan-igid, göyərçin – sülh quşu; göyərçinim (əzizləmə), öküz - çox yekə, nahamar, zorba adam və s.) verilir. Alleqorik anlayışlar daha çox ictimai məzmun bildirir və cəmiyyətdəki çatışmazlıqları əhatə edir.

11. Daxili məna normalılığına əsaslanan mətnlərin bir qismində eyhamlı, gizlədilmiş anlayışlar *sətiraltı* anlayışlarda ümumiləşdirilir. Sətiraltı mənaların açılması üçün eyhamların aydınlaşdırılması tələb olunur. Siyasi, ideoloji və ictimai məzmunlu sətiraltı mənalar elə qurulur ki, öz dövründə onlar müstəqil mənada başa düşülsə də sonrakı mərhələdə tamam özgə məna bildirdiyi aşkar edilir. Mənaların gizlində verilməsi iintensivləşməni zəiflətmir, əksinə, diqqəti gizlinin açılmasına yönəltməklə onun anlaşılmasını intensivləşdirir.

12. Bəzi yazılı mətnlərdə linqvistik-üslubi və məntiqi anomaliyalar da müşahidə olunur ki, bunlara daha çox poeziya dilində və poetik nəsr nümunələri kimi yazılan bədii mətnlərdə rast gəlinir. Buna əsasən belə bir məntiqi nəticə hasil olur ki, dilimizin poetik imkanları, ahəngdarlıq və ifadəlilik potensialı nə qədər zəngin olsa da, bu zənginlik ilə tam şəkildə sabit normalılığa çevrilə bilməmişdir.

13. Bədii mətnlərdən alınan nümunələrin təhlili göstərir ki, şair və yazıçılar həm şeir yaradıcılığında və həm də bədii nəsrdə poetizm yaratmağa çox meyillidirlər. Bədii mətnlərdə bəzən sözlərin düzgün seçilməsi məntiqsizlik ilə nəticələndiyi kimi, üslubi cəhətdən də qüsurlar görünür. Həmçinin cümlələrdə məntiqi normaların pozulması müəyyən anlaşılmazlıq yaradır. Bədii mətnlərdə məntiqi və linqvistik-üslubi anomaliyaların baş verməsi ilə normaların pozulmasının əsas səbəblərindən biri mətnin poetikliyini canlandırmaq üçün pafosdan istifadə edilməsidir. Pafos ilk baxışdan poetik görünür. Lakin məntiqin pozulması poetik nümunənin dəyərini itirir.

14. Məişət-danışıq dilində sərbəst normalılığa əsaslanan ifadə vasitələrinin poetik mətnlərə daxil edilməsi də anomaliyaların baş

verməsinə səbəb olur. Belə anomaliyalara həm sovet dövrü ədəbi nümunələrində, həm də müasir yazılarda rast gəlmək olur. Yazıçı və şairlər bədii təsvir vasitələrindən, təşbehlərdən düzgün istifadə edə bilmirlər. Odur ki, şifahi dilə, həmçinin yazılı dilə aid normaların təkmilləşdirilməsi müasir dilçiliyin qarşısında duran əsas problemlərdən biri kimi daim diqqətdə olmalıdır. Həmçinin poetik dilin təsdiqi və təhlili, dil vasitələrinin norma problemləri barədə yeni-yeni araşdırmaların aparılması qarşıda duran vəzifələrdən biridir.

**Dissertasiyanın ümumi məzmunu ilə əlaqədar aşağıdakı məqalə və tezislər çap olunmuşdur:**


1. Azərbaycan dilində məcazlaşmanın konseptual xarakteri // Gənc alimlərin III beynəlxalq elmi konfransı, – Gəncə: – 17-18 oktyabr, – 2018, – h. 2. – s.32-35
2. Illustration of phonetic elements // – Одеса: Науковий Вісник Міжнародного Гуманітарного Університету, серия: Філологія, – 2019. Випуск 42 том 1, – с. 142-145
3. Azərbaycan dilində linqvistik-məntiqi normalar // “Gənclər və elmi innovasiyalar”. Tələbə və gənc tədqiqatçıların Respublika elmi-texniki konfransının məruzə materialları, AzTU, – Bakı: – 3-5 may, – 2018, – h. 1. – s. 506-507.
4. Obrazlaşdırıcılıqda ritorikanın rolu // – Bakı: Filologiya məsələləri, – 2019. № 9, – s. 196-200.
5. Bədii mətndə obrazlaşdırıcılığın aktuallaşma problemi // – Bakı: Dil və ədəbiyyat, – 2019. 3 (111), – s.137-139.
6. Obrazlaşdırıcılığın qrammatik ifadə vasitələri // – Gəncə: GDU Elmi Xəbərlər, Fundamental, humanitar və təbiət elmləri seriyası, – 2020. № 2, – s. 331-335.
7. Obrazlaşdırıcılıqda norma və anomaliya // – Bakı: Tədqiqlər, – 2020. № 1-2, – s. 107-112.
8. Figuratıveness as an actually norm in the intensivity of language information // «Комплексные и отраслевые проблемы науки и пути их решения». Сборник статей по итогам Международной научно-практической конференции, – Стерлитамак, Россия: – 13 июля, – 2020, – с. 47-50.

9. Fonetik obrazlaşdırmada fərdi normalılıq prinsipi // – Bakı: Terminologiya məsələləri, – 2021. № 1, – s. 169-173
10. Obrazlaşdırıcı dil elementlərinin normalaşmasında məcazlaşmanın rolu // – Gəncə: GDU Elmi Xəbərlər, Fundamental, humanitar və təbiət elmləri seriyası, – 2021. №1, – s. 267-271

Dissertasiyanın müdafiəsi 12 dekabr 2023-cü il tarixində saat 16:00-da
Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurasının iclasında keçiriləcək.
Ünvan: Bakı, AZ 1143, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.
Avtoreferat 26 oktyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 12.10.2023
Kağız formatı: 60x84 16\[1]
Həcm: 43 776
Tiraj: 100